## QƏRBİ AZƏRBAYCAN





# Yüksək mənəvi keyfiyyətlərə malik fədakar pedaqoq





***Qərbi Azərbaycanın Zəngəzur mahalının Mehri bölgəsindən olan tanınmış ziyalı, böyük şəxsiyyət, nəcib insan, yüksəkixtisaslı pedaqoq, beynəlmiləl Lehvaz kənd orta məktəbinin direktoru Qüdrət Orucovun 100 illik yubileyi münasibətilə keçirilən tədbirdə onun həyat və yaradıcılıq fəaliyyətindən bəhs edildi. Bildirildi ki, 1924-cü ildə anadan olan Qüdrət Orucov 17 yaşında könüllü olaraq cəbhəyə yollanmış, ön sıralarda xidmət etmişdir. O, müharibənin qanlı-qadalı illərində bir çox medallara layiq görülmüşdür. El arasında böyük nüfuz qazanmış pedaqoq-müəllim olmuşdur.***



Yeni Azərbaycan Partiyasının (YAP) Təftiş Komissiyasının üzvü Musa Musayev Qüdrət müəllimin şəxsiyyəti və onun ailəsi ilə uzun illər davam edən dostluq münasibətlərindən danışdı. Vurğuladı ki, ailələri bir-birinə çox yaxın olub, dost və qardaş münasibəti qurublar.

ATU-nun İctimai fənlər kafedrasının müdiri Qoşqar Əliyev Qüdrət Orucov kimi müəllimlərin varlığının nə qədər vacib olduğunu vurğuladı. Bildirdi ki, müəllimlər yalnız bilik öyrədən deyil, həm də xalqın mənəvi dayağıdırlar. Müəllimlər cəmiyyətin formalaşmasında mühüm rol oynayırlar.

O, ulu öndər Heydər Əliyevin müəllimlərə verdiyi yüksək dəyərdən də danışdı. Heydər Əliyev hər zaman təhsilin və müəllimlərin rolunu xüsusi qeyd etmiş, onların cəmiyyətdəki mövqeyini gücləndirmək üçün ardıcıl islahatlar aparmışdır. Ümummilli liderin təşəbbüsü ilə Azərbaycanda təhsil sahəsində bir çox yeniliklər həyata keçirilmiş, müəllimlərin rifahı yaxşılaşdırılmışdır. Ulu öndər müəllimləri cəmiyyətin aparıcı qüvvəsi kimi baxır, onların fəaliyyətini ölkənin gələcəyi üçün həlledici hesab edirdi.

Qoşqar Əliyev müəllimin milli kimliyimizin, mədəniyyətimizin və dövlətimizin dayağı olduğunu qeyd etdi.

Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi Hidayət Orucov Qüdrət Orucovun şəxsiyyətindən və onun müəllim peşəsinə olan vurğunluğundan danışdı. Hidayət müəllim Qüdrət Orucovu təkcə pedaqoq kimi deyil, həm də ziyalı, elmə və insanlığa xidmət edən şəxsiyyət kimi səciyyələndirdi: "Müəllimlik sadəcə bir peşə deyil, əsl mənada həyat tərzidir. Bu peşəyə ürəklə bağlı olan insanlar cəmiyyətin gələcəyini formalaşdırır, gənclərin dünyagörüşünü, düşüncə tərzini və mənəviyyatını formalaşdırırlar. Qüdrət Orucov məhz belə insanlardan idi. Onun müəllimliyə olan sevgisi və bu sahədə göstərdiyi fədakarlıq onu tanıyan hər kəsin yaddaşında dərin izlər qoyub".

Hidayət Orucov vurğuladı ki, Qüdrət Orucov müəllim adını sadəcə daşıyan deyil, bu ada layiq olan insan idi. Onun pedaqoji fəaliyyəti, gənc nəslə verdiyi töhfələr illər keçsə də, unudulmayacaq. Çünki o, bilik və təcrübəsini paylaşmaqla kifayətlənmir, həm də öz tələbələrinə insanlıq, vətənpərvərlik və zəhmətsevərlik kimi ən ali dəyərləri aşılayırdı.

ATU-nun Yoluxucu xəstəliklər kafedrasının dosenti Elza Orucova Qüdrət Orucovun xarakterinin əsas cizgilərindən birini xüsusi vurğulayaraq dedi ki, o, hər hansı haqsızlıq və qəsdən edilən səhvlə heç vaxt barışmazdı. Bu prinsipiallıq onun təkcə pedaqoq kimi deyil, həm də şəxsiyyət kimi yüksək mənəvi keyfiyyətlərə sahib olduğunu göstərirdi.

Tədbirdə Sultan Orucov və Svetlana Orucova Qüdrət Orucovun həm də ailə dəyərlərinə sadiq şəxsiyyət, nümunəvi müəllim olduğunu bildirdilər. Çıxış edənlər onun gənclərin yetişməsində və cəmiyyətə layiqli vətəndaşlar kimi böyümələrində oynadığı mühüm rolu vurğulayaraq Qüdrət müəllimi xatırlamağın həm də böyük mənəvi borc olduğunu qeyd etdilər.

**Ləman TƏHMƏZ,**
**"Respublika".**